# ZƏFƏRİN UNİVERSİTETİ

KARABAKH UNIVERSITY

# Qarabağ Universitetinin yaradılmasının bir illiyi münasibətilə konsert keçirilib





Noyabrın 30-da Qarabağ Universitetində İncəsənət fakültəsi tərəfindən konsert və sərgi təşkil edilib.

Universitetin yaradılmasının bir illiyi münasibətilə keçirilən tədbir Dövlət Himninin səsləndirilməsi və şəhidlərin xatirəsinin yad edilməsi ilə başlayıb.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, nazirliyin rəsmiləri və digər qonaqlar iştirak ediblər.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov açılış nitqi ilə çıxış edərək qonaqları salamlayıb. Bir il ərzində əldə edilən nailiyyətlərdən danışan rektor universitetin ölkənin təhsil sistemində önəmli rolunu vurğulayıb.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında Qarabağ Universitetinin qısa müddətdə böyük inkişaf yolu keçdiyini, təhsil, elm və innovasiya sahələrindəki fəaliyyətinin ölkə üçün əhəmiyyətli olduğunu bildirib.

Universitetin fəaliyyətinin regionda təhsil və elm sahəsindəki islahatların bir hissəsi olduğunu diqqətə çatdıran nazir qeyd edib ki, burada tədris prosesi beynəlxalq səviyyədə tanınan standartlara uyğun təşkil edilir, həmçinin tələbələrə müasir və keyfiyyətli təhsil imkanları təqdim olunur.

Konsertdə "Cadenza" orkestrinin, İncəsənət fakültəsində müəllim kimi fəaliyyət göstərən tanınmış incəsənət xadimləri və tələbələrin ifasında musiqi nümunələri səsləndirilib.

Konsert proqramından sonra həmin fakültənin "Dekorativ - tətbiqi sənəti" və "Dizayn" ixtisasları üzrə tədris aparan müəllimlərinin əsərlərindən ibarət sərgi nümayiş etdirilib.








## Emin Əmrullayev

"Qarabağ Universitetində yeni korpuslar açılacaq. Yaxın günlərdə tədris - tibbi tədqiqat mərkəzinin binasının təmiri istiqamətində işlərə başlanılacaq. Artıq iki yeni korpusun tikintisində ilkin işlər görülüb. Bu yaxınlarda da İqtisadiyyat - biznes məktəbi və Sosial elmlər fakültəsinin binaları hazır olacaq.

Qarabağ Universitetində Türk Dövlətləri Təşkilatına (TDT) və İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrdən tələbələr də təhsil alacaqlar. Növbəti ildən Prezident İlham Əliyevin tapşırığı ilə türkdilli dövlətlərdən və İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv olan dövlətlərdən tələbələrin Qarabağ Universitetində təhsil alması planlaşdırılır. Həmçinin Azərbaycanla dostluq münasibətləri saxlayan ölkələrin də tələbələri növbəti ildən universitetə qəbul ediləcək.

Universitetə növbəti tədris ilində təxminən 1500-ə qədər tələbə qəbulu planlaşdırılır. Əsasən mövcud fakültələr üzərindən yeni ixtisaslar da yaradılacaq. Yəni mövcud fakültələrdə müəllimlik ixtisaslarında yeni sahələr - kimya, biologiya, fizika, coğrafiya müəllimliyi və digər müəllimlik ixtisaslarını çalışacağıq ki, tam əhatə edək. Mühəndislik ixtisaslarının da sayı artacaq.

Tibb fakültəsinin də açılmasını planlaşdırırıq. Tibb fakültəsində ali təhsil səviyyəsində həm "Tibb", həm də "Tibb bacısı" ixtisaslarının açılması planlaşdırılır. Bundan əlavə, Təbiət fənləri üzrə fakültənin də açılmasını düşünürük".